# Məcburi köçkünlərlə görüş keçirilib

Yanvarın 29-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Zəngilan, Qubadlı və Şuşa rayonları ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə Əli Həsənov son dövrlər Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş müşavirələrdə qarşıya qoyduğu vəzifələrdən, onların yerinə yetirilməsi istiqamətində görülən işlərdən danışarkən qeyd edib ki, 2015-ci il daha çox dünyada iqtisadi-siyasi böhranın dərinləşməsi ilə yadda qaldı. Avropanı "lərzəyə" salan, hələ də həlli tapılmayan qaçqın-miqrant məsələsi, yaşadığımız regionda baş verən hadisələr, Türkiyə-Rusiya, İran-Səudiyyə Ərəbistanı münasibətlərindəki gərginlikləri də həmin iqtisadi-siyasi böhranın nəticələrindən biri kimi dəyərləndirmək olar.



Baş nazirin müavini qeyd etdi ki, bu böhran 2008-ci ildən başlayaraq dünya ölkələrini bürüsə də, Prezident İlham Əliyevin uzaqgörən siyasəti ölkəmizi uzun müddət bu sarsıntılardan qoruya bildi. Bu illərdə böyük iqtisadi layihələr həyata keçirildi, sosial sahədə mühüm addımlar atıldı. Bu siyasətin nəticəsidir ki, son illər qeyri-neft sektoru inkişaf etdi və nəticədə ÜDM-in qeyri-neft sektorundakı çəkisi 70 faizə qədər yüksəldi.

Əli Həsənov keçən ilin uğurlarına da nəzər yetirdi. 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunduğunu və nəticədə 6,6 faiz artım əldə edildiyini vurğuladı. Keçən il iqtisadiyyata 20 milyard manat dəyərində investisiya yatırılıb, mühüm qaz layihələri icra edilib, Avropa ölkələrinin qazla təchizatını xeyli yaxşılaşdıracaq TANAP layihəsinin əsası qoyulub. Keçən il 60 tibb müəssisəsi istifadəyə verilib. 100 min iş yeri açıldı. Ancaq dövlət başçısının qeyd etdiyi kimi, təəssüf ki, onun 40 mini böhran üzündən bağlanıb. Bununla belə, 2015-ci ildə Azərbaycan əhalisi 114 min nəfər artıb. Baş nazirin müavini keçən il ölkəmizdə təşkil olunan I Avropa Oyunlarını siyasi və iqtisadi baxımdan mühüm hadisə adlandırdı.

Baş nazirin müavini son illərin rəqəmlə ifadə olunan göstəricilərinə də diqqət yetirib. Belə ki, son 12 ildə əldə olunan mühüm nailiyyətləri saymaqla qurtaran deyil. Ölkədə olan 30 elektrik stansiyasından 25-i bu illərdə istifadəyə verilib. Şəhər və kəndlərin 90 faizi qazlaşdırılıb. 10 min kilometrdən artıq yeni yollar salınıb. 650 min nəfər içməli su ilə təchiz olunub. Ölkədəki 5 min məktəbin 3 mini bu illərdə istifadəyə verilib. 600 xəstəxana binası tikilib başa çatdırılıb. Məcburi köçkün və qaçqınlar üçün salınan 94 qəsəbədən 89-u məhz bu illərdə istifadəyə verilib. O cümlədən, bu illərdə müxtəlif sahələrə milyardlarla manat investisiya qoyulub.

Əli Həsənov Prezident İlham Əliyevin son müşavirələrdə 2016-cı il üçün qarşıya qoyduğu vəzifələrdən də danışıb. Dövlət başçısı bu ili islahatlar ili adlandırıb və qeyd edib ki, artıq bu istiqamətdə mühüm addımlar atılmaqdadır. Müxtəlif təbəqədən olan insanlara, aztəminatlı ailələrə, eləcə də məcburi köçkün və qaçqınlara verilən müavinətlərin artırılması sosial sahədə dövlətin nəzərdə tutduğu prioritet istiqamətlərdəndir. Davosda keçirilən iqtisadi forumda Azərbaycanın iqtisadi rəqabətliyə görə dünya dövlətləri arasında 40-cı yerə çıxması ölkəmizdəki uğurlu iqtisadi-siyasi kursun göstəricisidir. Bununla belə, ölkəmizdə ərzaq təhlükəsizliyinin tam təmin olunması da hazırda qarşıda duran mühüm vəzifələrdən biridir.

Görüşdə Baş nazirin müavini qeyd edilən rayonlardan olan məcburi köçkünlərin problemləri ilə maraqlanıb, onların suallarını cavablandırıb.

Şuşa rayonundan məcburi köçkün, rayon Ağsaqqallar Şurasının sədri Məhəmməd Hacıyev, Qubadlı rayonundan məcburi köçkün, şəhid ailəsi müəllimə Təranə Şahmuradova, Zəngilan rayon Ağsaqqallar Şurasının sədri Xuduş İsgəndərov, Ağdam rayonundan məcburi köçkün Əkrəm Abdullayev, Füzuli rayonundan məcburi köçkün, idmançı Natiq Süleymanzadə, Milli Məclisin deputatı Flora Qasımova çıxış edərək dövlət başçısının tövsiyələrini yüksək qiymətləndirdilər. Onlar Prezident İlham Əliyevin həmişə qaçqın və məcburi köçkünlərin problemlərinə xüsusi qayğı ilə yanaşdığını, Ali Baş Komandanın rəhbərliyi ilə tezliklə doğma yurda dönəcəklərinə əminliklərini bildirdilər.

***Bəxtiyar QARACA,***
***"Azərbaycan"***